# 3 DEKABR - BEYNƏLXALQ ƏLİLLƏR GÜNÜDÜR

# ƏLİLLƏR DÜNYASI

№ 04 (40) 02 DEKABR 2009-cu il Editorial "The World of the Disables" Müstəqil ictimai-siyasi qəzet Qəzet 2004-cü ildən çıxır

## Ziyafət Əsgərov: "Əlillər hər zaman dövlətin diqqət mərkəzindədir"

***Məlum olduğu kimi, 3 Dekabr-Beynəlxalq Əlillər Günüdür. Bu gün dünyanın bütün ölkələrində qeyd olunur. Onu da qeyd edək ki, əlillərin reabilitasiyası və cəmiyyətə inteqrasiyası, eləcə də onların sosial -məişət problemlərinin həlli hər bir zaman müstəqil dövlətimizin rəhbərliyinin diqqət mərkəzindədir. Respublikamızda əlillərə dövlət səviyyəsində qayğı və diqqət göstərilir.***



"Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin sədri və qəzetimizin baş redaktoru Tahir Xudiyev Beynəlxalq Əlillər Günü ilə bağlı Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərovla görüşərək ondan ölkəmizdə əlillərə göstərilən qayğı və diqqət barədə öz fikirlərini qısa şəkildə bildirməsini xahiş etmişdir. Ziyafət müəllim demişdir:

- Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev bütün ölkə vətəndaşları kimi, əlil soydaşlarımıza da böyük qayğı və diqqətlə yanaşır. Məhz dövlət başçımız cənab İlham Əliyevin qayğı və diqqətinin nəticəsidir ki, hazırda ölkəmizdə müharibə iştirakçıları, əlillər, şəhid ailələri, tənha və kimsəsizlər, həmçinin bu kateqoriyadan olan digər şəxslər daim dövlətin xüsusi diqqət və qayğısı ilə əhatə olunurlar. Əlillər evlərlə, avtomobillərlə təmin olunur, onların maddi vəziyyətinin yaxşılaşdırılması üçün əməli tədbirlər görülür. Əlillərin həyat şəraitinin, yaşayış səviyyəsinin daha da yüksəldilməsi üçün dövlətimiz tərəfindən mütəmadi şəkildə müvafiq tədbirlər görülür, yeni mütərəqqi qanunlar qəbul edilir. Eyni zamanda, qeyd etmək istəyirəm ki, əlillərlə bağlı Azərbaycan Respublikasının qanunvericilik bazasında da hər zaman yeniliklər aparılması nəzərdə tutulur. Bir sözlə, əlillər hər zaman dövlətin diqqət mərkəzindədir və bu gələcəkdə də belə olacaqdır.

***Tahir Xudiyev***



## Sadəlik-dahiliyin anasıdır



Belə bir fəlsəfi deyim var: Sadəlik dahiliyin anasıdır. Həqiqətən də, bəşəriyyət tarixinə diqqətlə nəzər yetirdikdə böyük zəka sahiblərinin yüksək intellekt səviyyəsinə malik olmaqla yanaşı, öz şəxslərində sadəlik, təvazökarlıq, alicənablıq, qayğıkeşlik, mehribanlıq və s. kimi yüksək insani keyfiyyətləri cəmləşdirdiklərini də görürük. Eyni zamanda, sadəlik həm də insan istedadının meyarı sayılır. Fitri istedad sahibi olan insanlar bir qayda olaraq həmişə ümummilli və ümumbəşəri ideallarla yaşayır, bütün varlıqları ilə cəmiyyətin tərəqqisinə, rifahına xidmət edirlər. Bu baxımdan Azərbaycanın dünya şöhrətli alimi, əsl ziyalı, dünyanın aparıcı elm və təhsil ocaqlarının professoru, yüksək reytinqli beynəlxalq elmi jurnalların redaksiya heyətinin üzvü, akademik Rafiq Əliyevin həyat və fəaliyyəti ibrətamizdir.

Əziz oxucular, yazıya belə fəlsəfi girişlə başlamağımız heç də təsadüfi deyil. Son vaxtlar redaksiyamıza və "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinə görkəmli ziyalı, məşhur alim Rafiq Əliyevin niyə məhz qəzetimizin Redaksiya Heyətinin üzvü olması ilə bağlı çoxlu suallar daxil olur. Sualı görkəmli alim belə cavablandırır:

- İlk öncə onu qeyd edim ki, əlil insanlar da cəmiyyətin bir üzvüdür. Onlar bizim analarımız, bacı-qardaşlarımız, övladlarımızdır. Nəzərə alsaq ki, əlillər cəmiyyətin daha çox həssas münasibətə ehtiyacı olan bir təbəqəsidir, biz onlara ikiqat qayğı və diqqətlə yanaşmalıyıq. Dünyanın bütün mütərəqqi ölkələrində əlillərə xüsusi qayğı və diqqət var, onlar dövlət himayəsində yaşayırlar. Əlillər arasında ölkənin ərazi bütövlüyü, dövlət müstəqilliyi uğrunda döyüşmüş şəxslər kifayət qədərdir. Onlar müqəddəs amal uğrunda öz sağlamlıqlarını qurban vermişlər. Özünü vətənpərvər, millətsevər hesab edən hər bir şəxs, kimliyindən asılı olmayaq, əlillərə böyük hörmət və ehtiramla yanaşmalıdır. Vətənpərvər insanlar həmişə yüksək hörmətə, diqqətə layiqdir. Mən də biz azərbaycanlı kimi, bir elm adamı kimi əlillərə böyük hörmət bəsləyir və bunu özümün müqəddəs vətəndaşlıq borcum hesab edirəm.

O ki qaldı mənim "Əlillər Dünyası" qəzetinin Redaksiya Heyətinin üzvü olmağıma, birmənalı şəkildə deyə bilərəm ki, bu qəzet taleyin amansız hökmü ilə əlil olmuş soydaşlarımızın qayğı və problemlərini daim işıqlandırır, onlara hərtərəfli köməklik göstərir. Qəzetin belə xeyirxah fəaliyyətini ürəkdən alqışlayıram.

Mübaliğəsiz deyə bilərəm ki, bütün media təmsilçiləri, qeyri-hökumət təşkilatları, xarici ölkələrin respublikamızda fəaliyyət göstərən diplomatik korpusları və beynəlxalq təşkilatların nümayəndələri bu qəzeti maqarla izləyir. Qəzet sözün həqiqi mənasında həm də dünya ictimaiyyəti tərəfindən qəbul edilir. Eyni zamanda, bu qəzet kollektivinin "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyini yaratması da təqdirəlayiqdir. Tam əminliklə deyə bilərik ki, artıq bu birlik də beynəlxalq ictimaiyyət tərəfindən tanınıb. Bax, bütün bu sadaladığım müsbət xüsusiyyətlərə görə mən qəzetin Redaksiya Heyətinin üzvüyəm və bundan fəxr duyuram. Elə Redaksiya Heyətində təmsil olunmağım da mənim əlillərə olan münasibətimin əyani sübutudur. Yeri gəlmişkən, çox istərdim ki, müvafiq dövlət təşkilatları və xeyriyyəçi insanlar bu qəzetə lazımi dəstək versinlər.

Sonda isə yuxarıda qeyd etdiklərimi yekunlaşdıraraq, qəzetimizin yaradıcı kollektivinə yeni-yeni uğurlar arzulayıram.

***Aynur Sehriqızı***

## Növbəti xeyirxah tədbir

***Saray qəsəbəsindəki 7 saylı İnternat Evində keçirilmiş tədbir xanım Kanta Taluktar Stankinanın təşəbbüsü ilə baş tutub***

**Hörmətli oxucular!**

Qəzetimizin ötən saylarında Almaniyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri cənab Pyer Kristofer Stankinanın xanımı Kanta Taluktar Stankinanın respublikamızda həyata keçirdiyi xeyirxah işlər haqqında yazılar dərc etmişdik. Xanım Kanta Stankina öz xeyirxah fəaliyyətini davam etdirərək bu yaxınlarda Saray qəsəbəsindəki 7 saylı İnternat Evində növbəti tədbir keçirdi. Məlumat üçün onu da bildirək ki, bu mərasim adıçəkilən internat məktəbində Almaniya istehsalı olan xüsusi filtrlərin quraşdırılmasına həsr olunmuşdu. Bu xüsusi filtrlərin quraşdırılması isə məktəb kollektivinin içməli su ilə təminatını birdəfəlik həll etmişdir.

Sözügedən tədbirə Hindistanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri cənab Debnat Şou, səfirliyin əməkdaşları, Hindistan-Azərbaycan Assosiasiyasının mütəxəssisləri, beynəlxalq təşkilatların nümayəndələri, habelə başqa qonaqlar və kütləvi informasiya vasitələrinin (KİV) nümayəndələri də qatılmışdılar. Onu da qeyd edək ki, xanım Kanta Stankinanın gerçəkləşdirdiyi budəfəki tədbirdə "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin İdarə Heyətinin (BƏC İB), demək olar ki, bütün üzvləri iştirak edirdilər.

**Davamı səh. 2-də**



## Məhbus əlillərin həyatı



**- Mehman müəllim, respublikamızın cəzaçəkmə müəssisələrində əlillər varmı?**

- Çox təəssüflər olsun ki, islah-əmək müəssisələrində, ümumən, azadlıqdan məhrum olan şəxslər sırasında bu kateqoriyadan olan şəxslər də var. Onların saxlanılması şəraitinə gəlincə, ilk növbədə bu şəxslər başqa məhbus yoldaşlarından fərqli olaraq birmərtəbəli çarpayılar olan kameralarda saxlanılır, onların dayaq-ortopedik protezə olan ehtiyacları nəzərə alınır, onlar müntəzəm şəkildə həkim müayinəsindən keçirilir və səhhətləri ilə bağlı problemlər yarandıqda müalicə üçün penitensiar xidmətin ixtisaslaşdırılmış tibb müəssisələrinə göndərilirlər.

**- Onların saxlanılma şəraiti, həyat tərzi və bu kateqoriyadan olan şəxslərə münasibət barədə bir qədər ətraflı məlumat verməyinizi istərdik.**

- Penitensiar xidmətin tabeliyində olan cəzaçəkmə müəssisələrində azadlıqdan məhrum edilmiş şəxslər arasında olan əlillərin saxlanma şəraiti, həyat tərzi və bu kateqoriyadan olan şəxslərə münasibət barədə deyə bilərəm ki, həmin şəxslərin cəza çəkdikləri dövrdə də müxtəlif imtiyazlardan istifadə etmələrinə və normal həyat tərzi keçirmələrinə tam şərait yaradılır. Onu da bildirmək istəyirəm ki, penitensiar xidmətdə yeni struktur dəyişikliyindən sonra yaradılmış Məhkumların Sosial Müdafiəsi Bölməsi əlil məhkumlarla bağlı problemlərin həllinə xüsusi diqqət göstərir.

**Davamı səh. 2-də**

## Bu sayımızda:


Orta təhsil müəssisələrində özbaşınalıq — Səh.2-də

Kim haqlıdır: təqaüdçülər, yoxsa DSMF? — Səh. 2-də

Vətəndaşların suallarını "Beynəlxaq Əlillər Cəmiyyəti" İctimai Birliyi cavablandırır — Səh.3--də

Bələdiyyələrdə özbaşınalıq nə vaxta qədər davam edəcək? — Səh.3-də

Yazdıqlarımızın əks-sədası — Səh.3-də

MURMANSKDA UNUDULMAYAN AZƏRBAYCAN... — Səh.3-də